# Azərbaycan animasiyası keçmişdən gələcəyə

**"Azərbaycanda animasiya filmlərinin yaranması 1969-cu ildən başlayır. O dövrdə kinostudiyanın nəzdində 2 illik animasiya kursları təşkil olunmuşdu. Mən həmin kursların məzunuyam və 1968-ci ildə oranı bitirmişəm. Bu kursların nəticəsi olaraq Azərbaycanın ilk rəngli animasiya filmi - klassik "Cırtdan" ekranlaşdırıldı. Onu klassik adlandırmağım təsadüfi deyil, çünki sonrakı illərdə "Cırtdan" mövzusunda bir çox animasiya filmləri çəkildi".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında tanınmış animasiya rejissoru, Əməkdar mədəniyyət işçisi Elçin Hami Axundov deyib.

Ölkəmizdə animasiya filmlərinin tarixinə qısa nəzər salan rejissor diqqətə çatdırıb ki, 1980-ci illərin sonuna doğru isə artıq 7-8 film ekranlaşdırılıb. "Ümumilikdə 150-yə yaxın animasiya filmi ərsəyə gəlib. Filmlər Azərbaycan dilində hazırlanaraq, milli mədəniyyətimizi, tariximizi və adət-ənənələrimizi əks etdirdi. 1995-ci ildən sonra animasiya filmlərinin çəkilişi dayandı. Yalnız 2002-ci ildə, Kino, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə yenidən animasiya istehsalı bərpa olundu. Əslində, artıq 1991-ci ildə biz müstəqil Azərbaycan Animasiya Filmləri Studiyasını ("Azanfilm") yaratmışdıq. Mən həmin studiyanın həm bədii rəhbəri, həm də direktoru idim. İldə bir film istehsal edirdik və onların arasında çox uğurlu nümunələr də var idi", - deyə o əlavə edib.



30 ilə yaxın müddətdə animasiya sahəsində çalışan E.H.Axundov animasiya filmlərinin bugünkü vəziyyətini analiz edib: "Azərbaycan Animasiya Assosiasiyasının İdarə Heyətinin üzvü kimi ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı təşkil edirik. Mədəniyyət Nazirliyi də bizə maliyyə yardımı göstərir və hər il 1-2 animasiya filmi çəkirik. Hazırda Vaqif Səmədoğlunun "Bum-bum" əsəri əsasında film üzərində işlər gedir. Bir çox proyektlər layihələndirmə mərhələsindədir. İnanıram ki, yaxın gələcəkdə biz tammetrajlı animasiya filmlərinə də imza atacağıq. Bunun üçün möhkəm baza yaratmalı, yeni animasiya kursları açmalı, aktyorlar, rəssamlar və yaradıcı insanları bu sahəyə cəlb etməliyik".

O, animasiya filmlərinin gənc nəslə təsiri barədə danışarkən deyib ki, tariximiz, mədəniyyətimiz və adət-ənənələrimiz kiçik yaşlardan tanıdılmalıdır. Ən böyük arzum isə, "Azanfilm" studiyasının bərpasıdır.

Azərbaycan.-2025.- 12 sentyabr (№194).- S.11.